www.amu.edu.az
# TƏBİB
Təsisçi: Azərbaycan Tibb Universiteti — Qəzet 1933-cü ildən çıxır — №-09 (1726) 16 may 2021-ci il



# Şuşa doğma musiqinin ağuşunda

*Cıdır düzündə keçirilən "Xarıbülbül" festivalı qala-konsertlə başa çatıb*

səh. 2

# "Davam"la əməkdaşlığımız davam edəcək

Azərbaycan Tibb Universitetinin rektoru professor Gəray Gəraybəyli "Davam" Gənclər Hərəkatının sədri Nihad Allahyarlı ilə görüşüb. Görüşdə qurumun ATU ilə əməkdaşlıq perspektivləri müzakirə olunub.

N.Allahyarlı "Davam" Gənclər Hərəkatının 44 günlük Vətən müharibəsi günlərində bir qrup təşəbbüskar gənc tərəfindən yaradıldığını bildirib. Qeyd edib ki, təşkilatın məqsədi ictimai-siyasi proseslərdə aktiv rol oynamaq, gənclər və idman siyasətinə yeni və fərqli layihələrlə töhfə vermək, sosiallaşaraq böyümək və ətrafına daha çox gənc toplamaqla ölkəmizdə aparılan islahatlar prosesinə fayda verməkdir.

Hərəkatın mərkəzi ofisi olan Bakı Dayaq Mərkəzi ali təhsil müəssisələri ilə əməkdaşlıq edərək, tələbələr arasında ideoloji işin təşkili, ictimai-siyasi həyatda fəal olan gənclərlə əlaqələrin qurulması və birgə fəaliyyət nəticəsində uğurlu işlərin görülməsini hədəfləyir.

Görüşdə hərəkatla ATU arasında dostluq və səmərəli əməkdaşlıq münasibətlərinin qurulması, tələbə təşkilatları ilə birgə fəaliyyətin perspektivlərinin müəyyən edilməsi kimi məsələlər barədə fikir mübadiləsi aparılıb.



## Rezidentura və magistratura şöbəsinin fəaliyyəti qənaətbəxş qiymətləndirilib

*Professor Gəray Gəraybəyli: "Rezidentlərimiz COVID-19-la mübarizədə aktiv fəaliyyət göstərirlər"*

səh. 3

## ATUREK-8 konfransının qalibləri mükafatlandırılıb

səh. 4

## Buraxılış kursun semestr imtahanlarına hazırlıq vəziyyəti müzakirə olunub

səh. 5




## Baş stomatoloq peyvəndləmə ilə bağlı əhaliyə müraciət edib

*Tərkibini bilmədiyimiz dərmanları rahatca istifadə edir, vaksinlərə gəldikdə isə, şübhəyə düşürük...*

səh. 4

# Ulu öndər Heydər Əliyevin xatirəsi anılıb

*İllər ötəcək, əsrlər bir-birini əvəz edəcək, ancaq onun əziz xatirəsi daim könüllərimizdə yaşayacaq*



**Mayın 8-də Azərbaycan Tibb Universitetində ulu öndər Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş onlayn formatda anım mərasimi keçirilib.**

ATU-nun rektoru, professor Gəray Gəraybəyli tədbiri açıq elan edərək, ulu öndərin həyat və fəaliyyəti ilə bağlı geniş məlumat verib. O, ümummilli liderin Azərbaycan tarixinin XX əsrin ikinci yarısı - XXI əsrin əvvəllərində ən görkəmli siması olduğunu qeyd edib: "Heydər Əliyev Azərbaycan tarixinə görkəmli siyasi və dövlət xadimi, dövlətimizi və dövlətçiliyimizi qoruyub saxlayan dahi rəhbər kimi daxil olub".

Ulu öndərin şərəfli ömür yolundan bəhs edən professor G.Gəraybəyli H.Əliyevin Azərbaycan dövlətçiliyinin qorunub saxlanması istiqamətində göstərdiyi gərgin fəaliyyətindən söhbət açıb. Natiq Ermənistanın hərbi təcavüzü və Dağlıq Qarabağla bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında ümummilli liderin müstəsna xidmətlərini qeyd edib: "Ermənistanın təcavüzü nəticəsində torpaqlarımızın 20 faizinin işğal olunması, bir milyondan çox soydaşımızın qaçqın düşməsi barədə həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında H.Əliyev çox gərgin və genişmiqyaslı işlər görmüşdür. Bu problemin sülh yolu ilə həlli baş tutmazsa, Qarabağın müharibə ilə işğaldan azad olunacağını bəyan etmişdir. H.Əliyevin ən böyük arzusu işğal altındakı torpaqlarımızın, xüsusilə Azərbaycanın incisi sayılan Şuşanın azad olunmasını görmək idi. Onun bu arzusunu Azərbaycanın müzəffər Ali Baş Komandanı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 44 günlük II Qarabağ Müharibəsi ilə reallaşdırdı. İllər ötəcək, əsrlər bir-birini əvəz edəcək, ancaq Heydər Əliyevin dahi siyasətçi kimi əziz xatirəsi daim könüllərimizdə yaşayacaq".

Anım tədbirində çıxış edən ATU-nun İctimai fənlər kafedrasının professoru Fəxrəddin Məmmədov ulu öndərin nəsillərə örnək olan həyat yolundan, Azərbaycan dövlətinin möhkəmləndirilməsi və dünyada öz layiqli yerini tutması istiqamətində göstərdiyi fəaliyyətdən söhbət açıb. Onun Azərbaycanın tarixinə, mədəniyyətinə, təhsilinə və digər sahələrə verdiyi yüksək qiyməti vurğulayıb: "Ulu öndər çiyinlərinə bir xilaskarlıq missiyası götürdü. Azərbaycanın müstəqillik qazanması nə qədər çətin idisə, onu qoruyub saxlamaq ondan da çətin idi. Müstəqillik qazandığımız 1991-ci il oktyabrın 18-dən ulu öndərin hakimiyyətə gəldiyi 1993-cü ilin iyununadək Azərbaycanda bir qarışıqlıq və xaos hökm sürürdü. Xalq çıxılmaz vəziyyətdə qalmışdı. Bir tərəfdən ermənilərin Azərbaycana təcavüzü, digər tərəfdən Azərbaycanın parçalanması təhlükəsi, şimalda və cənubda separatçı hərəkatlar - bütün bunlar müstəqilliyə vurulan ən böyük zərbələr idi. Ölkə parçalanma təhlükəsi ilə qarşılaşmışdı. Hətta Azərbaycanın dünya xəritəsindən silinmə təhlükəsi yaranmışdı. Belə bir vaxtda xalqın təkidli tələbi ilə ulu öndər Heydər Əliyev ölkəmizə rəhbərliyi öz üzərinə götürdü, Azərbaycanı parçalanma təhlükəsindən qurtardı". Professor F.Məmmədov nitqinə davam edərək H.Əliyevin hakimiyyəti dövründə dövlət çevrilişi cəhdlərinin qarşısının uğurla alınmasından, ölkədə aparılan quruculuq işlərindən və digər məqamlardan söhbət açıb.

Xarici dillər kafedrasının müdiri, professor Zemfira Məmmədova Heydər Əliyev şəxsiyyətindən və onun dünya liderləri arasındakı nüfuzundan bəhs edib. Ölkəmizdə ictimai-siyasi sabitliyin qorunub saxlanmasında göstərdiyi xidmətlərdən danışıb: "Ümummilli liderimiz ölkədə ictimai-siyasi sabitliyi təmin etməklə yanaşı, demokratik dövlət konsepsiyasını uğurla həyata keçirmiş, bu siyasi kurs bütün istiqamətlərdə Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsinə və inkişafına xidmət etmişdir. Ulu öndərin hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu, milli-mənəvi inkişaf istiqamətində gördüyü işlər bütövlükdə müstəqilliyimizin möhkəmlənməsinə və əhalinin rifahının yüksəlməsinə yönəlmişdir".

İctimai səhiyyə fakültəsinin tələbəsi Taleh Qasımov öz çıxışında bütün sahələrdə olduğu kimi, ulu öndərin təhsilin inkişafına da böyük önəm verdiyini bildirib. Onun müxtəlif görüşlərdə, tədbirlərdə etdiyi çıxışları həvəslə izlədiyini və yaddaşına həkk etdiyini söyləyib. T.Qasımov ümummilli liderin Azərbaycan gənclərinin əsl vətəndaş kimi yetişməsi üçün həmişə şərait yaratdığını deyib, ulu öndərin bir neçə müdrik kəlamını səsləndirib.

# Şuşa doğma musiqinin ağuşunda

*Cıdır düzündə keçirilən "Xarıbülbül" festivalı qala-konsertlə başa çatıb*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü və Heydər Əliyev Fondunun təşkilatçılığı ilə ölkəmizin mədəniyyət paytaxtı Şuşanın Cıdır düzündə keçirilən "Xarıbülbül" musiqi festivalı mayın 13-də qala-konsertlə başa çatıb.**

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva festival ifaçılarının çıxışlarını dinləyiblər.



Qala-konsertdə Xalq artistləri Rauf Abdullayev, Yalçın Adıgözəlov, Əməkdar artist Fuad İbrahimov və Murtuza Bülbülün dirijorluğu ilə Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri, Xalq artisti Gülbacı İmanovanın bədii rəhbərliyi ilə Azərbaycan Dövlət Xor Kapellası çıxış ediblər. Konsertdə Üzeyir Hacıbəylinin, Fikrət Əmirovun, Qara Qarayevin, Ələkbər Tağıyevin, Müslüm Maqomayevin, Niyazinin, Tofiq Quliyevin, Vasif Adıgözəlovun və digər bəstəkarların əsərləri təqdim olunub.

Festival çərçivəsində Xalq artistləri Alim Qasımov, Azərin, Dinarə Əliyeva, Elçin Əzizov, Əlixan Səmədov, Fərhad Bədəlbəyli, Mənsum İbrahimov, Murad Adıgözəlzadə, Natiq Şirinov, Polad Bülbüloğlu, Samir Cəfərov, Teyyub Aslanov, Yusif Eyvazov, Əməkdar artistlər Fərqanə Qasımova, Mirələm Mirələmov, Sahib Paşazadə, Şəhriyar İmanov, Şirzad Fətəliyev və digər ifaçıların çıxışları da alqışlarla qarşılanıb.

Konsertdə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin vaxtı ilə işğal altında olan ərazilərimiz haqqında söylədiyi "Arzu edirəm ki, sizinlə birlikdə gedək Şuşaya. Gedəcəyik, inanın ki, gedəcəyik. Şuşa Azərbaycanın gözüdür, hər bir azərbaycanlı üçün bu, iftixar mənbəyidir. Şuşa bizim mədəniyyətimizin, tariximizin rəmzidir. Şuşa hamı üçün əzizdir. Amma tək Şuşa yox, Laçın dağları da belə əzizdir. Heç vaxt biz Laçınsız yaşaya bilmərik. Ağdam kimi gözəl bir şəhər, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcərin o bulaqları, Kəlbəcərin o İsti suyu. Biz onlarsız yaşaya bilmərik" fikirlərini və Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı, Prezident İlham Əliyevin Şuşa şəhərinin 2020-ci il noyabrın 8-də işğaldan azad edildiyi gün xalqımıza müraciətində dediyi "Xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları! Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!" sözlərini əks etdirən videoçarx təqdim edilib.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun torpaqlarımızı işğaldan azad etməsindən sonra ilk dəfə keçirilən "Xarıbülbül" musiqi festivalı incəsənət xadimlərinin "Azərbaycan" mahnısının birgə ifası ilə yekunlaşıb.

Konsert bitəndən sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva festivalda iştirak edən incəsənət xadimləri ilə görüşüblər. Cıdır düzündə hamı birlikdə "Qarabağ Azərbaycandır!" söyləyib.

Qeyd edək ki, mayın 12-də - "Xarıbülbül" musiqi festivalının ilk günündə ölkəmizdə yaşayan müxtəlif xalqların musiqi yaradıcılığı "Azərbaycan musiqisində multikulturalizm" mövzusunda təqdim edilib. Ölkəmizin müxtəlif bölgələrində yaşayan ayrı-ayrı xalqların musiqi qrupları və ifaçıları öz çıxışları ilə Azərbaycanın millətindən, dinindən asılı olmayaraq hər bir kəsin vahid Vətəni olduğu mesajını bütün dünyaya çatdırıb. Festivalın açılışındakı çıxışında bu mesajın əhəmiyyətini xüsusi vurğulayan Azərbaycan Prezidenti İlham Əliyev deyib: "Azərbaycanda bütün xalqlar dostluq, qardaşlıq, həmrəylik şəraitində yaşayır və bu 44 günlük müharibə bir daha onu göstərdi ki, ölkəmizdə milli birlik, milli həmrəylik vardır. Təsadüfi deyil ki, birinci festivalda Azərbaycanda yaşayan xalqların nümayəndələri çıxış edəcəklər və bir daha biz bütün dünyaya buradan – Şuşadan, qədim torpağımızdan mesaj veririk".

**Azərbaycan Tibb Universitetinin İctimai səhiyyə fakültəsinin dekanı, professor Anar Ağayev və ATU-nun Xarici dil kafedrasının müdiri, professor Zemfira Məmmədova Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının həqiqi üzvü seçiliblər. ATU əməkdaşları, həmçinin Akademiyanın "Beynəlxalq qızıl ulduz" medalı ilə təltif ediliblər.**

# ATU-nun əməkdaşları beynəlxalq elmi quruma üzv seçiliblər



Beynəlxalq qurumun Azərbaycan təmsilçisi, professor Elçin İsgəndərzadə Akademiyaya üzvlük diplomunu və qızıl medalı alimlərə təqdim edib. O, Azərbaycan elminin inkişafına və ümumilikdə türk dünyası elminə göstərdiyi böyük xidmətlərə görə A.Ağayev və Z.Məmmədovanın bu qurumun həqiqi üzvləri seçildiklərini və medala layiq görüldüklərini deyib.

ATU-nun əməkdaşları mükafatın Azərbaycan alimlərinin elmi fəaliyyətinə verilən böyük qiymət olduğunu vurğulayaraq, təşəkkürlərini bildiriblər.

Professor Anar Ağayev 2001-ci ildə etibarən ATU-da müxtəlif vəzifələrdə çalışır. 60-dan çox elmi iş və məqalə müəllifi olan A.Ağayevin əsərləri dünyanın nüfuzlu elmi jurnallarında dərc olunub.

Professor Zemfira Məmmədova 2001-ci ildən ATU-da çalışır, 80-ə yaxın elmi işin müəllifidir. Prezident İlham Əliyevin Sərəncamına əsasən, 9 aprel 2021-ci ildə "Əməkdar müəllim" adına layiq görülüb.

Qeyd edək ki, Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyası mərkəzi qərargahı Ankarada fəaliyyət göstərən, türk elmi və mədəniyyətinin araşdırılması və təbliği ilə məşğul olan beynəlxalq elmi qurumdur. "Beynəlxalq qızıl ulduz" medalı türk dünyası elminə və təhsilinə yüksək xidmətlər göstərmişşəxslərə təqdim edilir. Bu günə qədər ATU-nun bir sıra alimləri həmin Akademiyanın həqiqi üzvü seçilib.

# Rezidentura və magistratura şöbəsinin fəaliyyəti qənaətbəxş qiymətləndirilib

## *Professor Gəray Gəraybəyli: "Rezidentlərimiz COVID-19-la mübarizədə aktiv fəaliyyət göstərirlər"*

**Böyük Elmi Şuranın onlayn formatda növbəti iclası keçirilib. Əvvəlcə universitetin 90 illik yubileyi münasibətilə bir qrup əməkdaşa fəxri adların verildiyini deyən ATU-nun rektoru, professor Gəray Gəraybəyli kollektivin, Böyük Elmi Şuranın və şəxsən öz adından dövlətimizin başçısı cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya dərin təşəkkürünü bildirib. Bundan əlavə, bir neçə əməkdaşın Səhiyyə Nazirliyi tərəfindən "Səhiyyə əlaçısı" döş nişanı və Fəxri fərmanla təltif olunduğunu vurğulayaraq, mükafatlandırılanları, eləcə də bütün kollektivi yubiley münasibətilə təbrik edib, işlərində nailiyyətlər arzulayıb.**



Rektorun giriş nitqindən sonra Rezidentura və magistratura şöbəsinin müdiri, professor Nailə Sultanova "Azərbaycan Tibb Universitetində rezidentura mərhələsində həkim-mütəxəssislərin hazırlanması vəziyyəti və qarşıda duran vəzifələr" mövzusunda məruzə ilə çıxış edib.



### Hazırda universitetdə 57 ixtisas üzrə 609 rezident təhsil alır

Şöbənin fəaliyyəti barədə məlumat verən N.Sultanova qeyd edib ki, əsas məqsəd ATU-ya qəbul olunmuş rezident və magistrların tədrisinin təşkilini, rezidentlərin klinikalarda maksimum səviyyədə xəstələrlə təminatını, onların elmi-tədqiqat işlərinə cəlb edilməsini və daxili nizam-intizam qaydalarına riayət olunmasını, rotasiyaları, eləcə də dövri və yekun attestasiya imtahanlarını həyata keçirməkdən ibarətdir.

Şöbə müdiri hesabat məruzəsində nəzərə çatdırıb ki, hazırda universitetdə 57 ixtisas üzrə I kursda 194, II kursda 180, III kursda 138, IV kursda 68, V kursda 29 nəfər olmaqla 609 rezident təhsil alır. Onlardan 49 nəfəri əcnəbi vətəndaşlardır, 3 nəfəri isə ödənişli əsaslarla 2-ci təhsil alan rezidentlərdir. 16 müxtəlif baza müqavilə yolu ilə 175 rezident təhkim olunub.

Cari ildən etibarən, Nazirlər Kabinetinin 15 mart 2019-cu il tarixli, 103 saylı qərarında təsdiq edilmiş siyahıya əsasən, Azərbaycanda rezidentura yolu ilə həkim-mütəxəssis hazırlığı təhsil müddəti 2 ildən 5 ilədək olmaqla 57 ixtisas üzrə aparılır. 2020-ci ildə isə rezidentura hazırlığına 18 ixtisas əlavə edilib.

Ali təhsilin magistratura səviyyəsi üzrə təhsil pilləsinə 2020-ci ildən etibarən 2 yeni - Səhiyyə menecmenti və Klinik psixologiya ixtisasları əlavə olunmaqla 7 ixtisas üzrə qəbul aparılıb. Magistraturanın I kursunda 35, II kursunda 13 nəfər olmaqla 48 magistrant təhsil alır.

Pandemiya ilə əlaqədar, rezidentlərin iş rejimində də bəzi dəyişikliklərin edildiyini söyləyən N.Sultanova, ixtisasından və kursundan asılı olmayaraq, COVID-19-la mübarizə planında ATU-ya təhkim olunmuş bütün rezidentlərin həm ambulator, həm də stasionar istiqamətdə çox aktiv iş planı ilə işlədiklərini və bununla onların həkimlik praktikası baxımından da çox böyük təcrübi biliklər qazandıqlarını vurğulayıb. Şöbə müdiri Vətən müharibəsi zamanı və ondan sonra qazilərimizə tibbi xidmətlər göstərilməsində də rezidentlərimizin zəhmətini yüksək qiymətləndirib.

### Bu il ATUREK onlayn formatda keçirilsə də, keyfiyyət və məzmununa xələl gəlməyib

Onun sözlərinə görə, 2013-cü ildən başlayaraq ATU ilə xarici ölkə universitetləri arasında bağlanmış ikitərəfli müqavilələr əsasında rezidentlərimizin xaricdə rotasiyaları təşkil olunur. 2019-cu ildən indiyədək ABŞ-a 2, Türkiyəyə 145, Almaniyaya 30, İtaliyaya 1, İngiltərəyə 1, Avstriyaya 1 nəfər olmaqla, göndərilib və bu iş hazırda da uğurla davam etdirilir.

N.Sultanova bildirib ki, rezidentlərin həkim-mütəxəssis kimi yetişdirilməsində onların klinik fəaliyyətləri ilə bərabər, elmi tədqiqat işlərinin aparılması da böyük əhəmiyyət kəsb edir: "Artıq 8 ildir ki, ATU-da ATUREK adı altında rezidentlərin elmi-təcrübi konfransları keçirilir. Bu il COVID-19 pandemiyası ilə əlaqədar karantin rejiminin tələblərinə uyğun olaraq, konfrans onlayn formatda keçirilib. Bu konfrans formatına görə fərqlənsə də, keyfiyyət və məzmununa heç bir xələl gəlməyib".

Rezidentura təhsilində dövri və yekun attestasiya imtahanlarından da bəhs edən natiq, bu il rektorumuzun göstərişinə əsasən, onların karantin qaydalarına uyğun keçirildiyini söyləyib: "Yekun attestasiya çərçivəsində Səhiyyə Nazirliyinin əməkdaşları da həm test mərhələsində, həm də II mərhələ sayılan klinik bacarıq imtahanlarının təşkili və keçirilməsində iştirak ediblər. Yekun imtahanın test mərhələsinin nəticəsi haqda bildirmək istərdim ki, iştirakı nəzərdə tutulan 344 rezidentdən 14-ü imtahana gəlməyib, 330 rezidentdən 33-ü kəsilib, 297 nəfər isə II mərhələyə buraxılıb. II mərhələdə 296 nəfər imtahandan keçib, 1 nəfər kəsilib".

İclasda çıxış edən kafedra müdirləri, professorlar Elçin Ağayev və Elmira Əliyeva hesabat məruzəsini qənaətbəxş qiymətləndirərək, bir sıra təklif və rəylərini dilə gətiriblər.

***Tədris proqramlarının beynəlxalq akkreditasiyası barədə söhbət açan rektor bildirib ki, hər bir universitetin fəaliyyəti bu amillə ölçülür: "Ali təhsil ocaqlarının bir hədəfi də beynəlxalq reytinqlərdə yüksək yerlər tutmaqdır. Bu həm də universiteti bitirən tələbələrin diplomlarının digər ölkələrdə tanınmasında əsas şərtlərdəndir. Biz cari ildə Müalicə işi, Stomatologiya və Əczaçılıq ixtisaslarının beynəlxalq akkreditasiyası üçün xarici şirkətlə müqavilə imzalamışıq. Həmin şirkət Tibb Təhsili Federasiyası tərəfindən 2017-ci ildən etibarən tanınır".***

### Rezidentlərin praktik vərdişlərə və elmi fəaliyyətə istiqamətləndirilməsi zəruridir

Səslənən fikirlərə münasibət bildirən universitetimizin rəhbəri G.Gəraybəyli müzakirə mövzusunun tibb sahəsində ən önəmli məsələlərdən biri olduğunu, son illər rezidentlərin istər universitetimizin klinikalarında, istərsə də digər klinikalarda COVID-19-la mübarizəyə cəlb olunduğunu və aktiv fəaliyyət göstərdiklərini vurğulayıb: "Rezidentura təhsili tibb təhsilinin əsas tərkib hissəsi kimi yenə də təkmilləşməli, bu və digər ixtisaslar üzrə proqramlar yenilənməlidir. Bildiyiniz kimi, bu proses pandemiyadan əvvəlki dövrdə başlayıb. Bir neçə ixtisas üzrə proqramlar hazırlanıb və beynəlxalq ekspertlər tərəfindən təsdiqlənib. Hesab edirəm ki, qalan ixtisaslar üzrə də proqramların təkmilləşdirilməsi vacibdir. Rezidentlərin ilk növbədə praktik vərdişlərə yönəldilməsi və onların elmi fəaliyyətə istiqamətləndirilməsini zəruri hesab edirəm.

Bazalara gəldikdə isə, ilk növbədə rezidentlərin təhsili nəzərdə tutulur. 3 ildir ki, həm dövlət, həm də özəl klinikalarla müqavilə bağlayıb, onlardan da baza kimi istifadə edirik. Mən çox məmnunam ki, bugünkü epidemioloji vəziyyətə baxmayaraq, qaydalara riayət etmək şərti ilə rezidentlərin imtahanlarını təşkil edə bildik. Tələbələrin imtahanlarından fərqli olaraq, bu imtahan prosesindən də razıyam. Hesab edirəm ki, rezidentura şöbəsinin fəaliyyəti qənaətbəxşdir".



Sonra iclasın gündəliyindəki müxtəlif məsələlər müzakirə olunub.

Tədris proqramlarının beynəlxalq akkreditasiyası barədə söhbət açan rektor bildirib ki, hər bir universitetin fəaliyyəti bu amillə ölçülür: "Ali təhsil ocaqlarının bir hədəfi də beynəlxalq reytinqlərdə yüksək yerlər tutmaqdır. Bu həm də universiteti bitirən tələbələrin diplomlarının digər ölkələrdə tanınmasında əsas şərtlərdəndir. Biz cari ildə Müalicə işi, Stomatologiya və Əczaçılıq ixtisaslarının beynəlxalq akkreditasiyası üçün xarici şirkətlə müqavilə imzalamışıq. Həmin şirkət Tibb Təhsili Federasiyası tərəfindən 2017-ci ildən etibarən tanınır.

Qeyd edim ki, 2024-cü ildən etibarən beynəlxalq akkreditasiyadan keçməyən universitetlərin diplomları nə Amerikada, nə də digər ölkələrdə tanınacaq. Son illərdə apardığımız işlərin nəticələrinə əsasən ümid edirik ki, bu akkreditasiyadan müsbət rəy alacağıq. Beynəlxalq akkreditasiyanın ən mühüm mərhələlərindən biri universitetin tədris prosesi haqqında geniş hesabat hazırlamasıdır. Müqaviləyə görə, şirkətin universitetimizə komissiya göndərməsi nəzərdə tutulub. Hesab edirəm ki, biz bu sınaqdan da uğurla çıxacağıq".

Natiq təhsilin yeni iqtisadi modelinin qurulması, resurs təminatının möhkəmləndirilməsinə toxunaraq bildirib ki, Təhsil Nazirliyinin Akkreditasiya Şurasının nəticələrinin 3-cü fəslində qeyd olunan irad və təkliflər nəzərə alınaraq, ATU-nun Təhsil Proqramında da bir sıra dəyişikliklər edilib. Rektor onu da diqqətə çatdırıb ki, tibb və digər ixtisasların tədris proqramlarında Ümumi gigiyena fənninin tədrisi nəzərdə tutulmadığı üçün Ümumi gigiyena və ekologiya kafedrasının illik dərs yükü kəskin azalaraq 1180 saata düşüb. Bu göstərici onun kafedra kimi fəaliyyət göstərməsinə imkan vermədiyi üçün ləğv olunmalıdır.

### Bir sıra laboratoriyaların fəaliyyətinə xitam verilib

Bundan sonra Tibbi profilaktika və İctimai səhiyyə ixtisasının tədris proqramında nəzərdə tutularaq, Ümumi gigiyena və ekologiya kafedrasında tədris olunan gigiyenik diaqnostika, gigiyena və ictimai ekologiya, radioasion gigiyena və ekoloji sağlamlığa giriş fənlərinin Qidalanma və kommunal gigiyena kafedrasında tədris olunması və həmin dərs yükünün də bu kafedraya verilməsi məsələsi müzakirəyə çıxarılıb və şura üzvləri tərəfindən səsə qoyularaq təsdiq olunub.

Böyük Elmi Şura universitetin nəzdində fəaliyyət göstərən təsərrüfat hesablı Elmi-tədqiqat, Tədris-klinik mikrobiologiya, Tədris-klinik biokimya və Tədris-klinik epidemiologiya laboratoriyalarının fəaliyyətinə xitam verilməsini, tədris və elmi-tədqiqat işləri ilə bağlı funksiyaların müvafiq kafedralara həvalə olunmasını, eləcə də ATU-nun tədris prosesində dəyişikliklərin edilməsini, dərslik, dərs vəsaitləri və metodik vəsaitlərin nəşrini təsdiqləməklə öz işini yekunlaşdırıb.

**Mənsur ƏLƏKBƏRLİ**

# Uğurlu əməkdaşlığın təməli qoyulub

*ATU ilə FHN Akademiyası arasında birgə fəaliyyətə dair müqavilə imzalanıb*



**Azərbaycan Tibb Universiteti ilə Fövqəladə Hallar Nazirliyinin Akademiyası arasında elm və təhsilə dair əməkdaşlıq müqaviləsi imzalanıb. Sənəd mayın 6-da FHN Akademiyasında keçirilən görüşdə təsdiqlənib.**

ATU-nun rektoru, professor Gəray Gəraybəylinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edən FHN Akademiyasının rəisi, general-mayor Baba Salayev qonaqlara rəhbəri olduğu təhsil müəssisəsi haqqında ətraflı məlumat verib. O, Akademiyada elm və tədris prosesinin yüksək səviyyədə təşkili üçün hərtərəfli şərait yaradıldığını bildirib. Qeyd edib ki, Akademiyada iki ixtisas üzrə fəaliyyət göstərən dörd fakültə, altı kafedra, bakalavriat səviyyəsi üzrə əyani və qiyabi şöbələr, magistratura səviyyəsində təhsil təşkil olunub.



Professor Gəray Gəraybəyli əməkdaşlığın hər iki təhsil müəssisəsi üçün uğurlu olacağına əminliyini bildirərək, FHN Akademiyası ilə işbirliyindən gözləntilərini açıqlayıb. ATU-da tədris-təhsil prosesinin təşkili, son dövrlərdə aparılan islahatlar haqqında görüş iştirakçılarına ətraflı məlumat verən rektor, Universitet nəzdində fəaliyyət göstərən klinikaların işi, tələbələr və rezidentlərin inkişafı üçün həyata keçirilən layihələrdən də söz açıb. O, ötən il ATU əməkdaşları və həkimlərinin Azərbaycan üçün taleyüklü iki cəbhədə - Vətən müharibəsi və koronavirusla mübarizədə aktiv iştirak etdiklərini diqqətə çatdırıb.

Daha sonra hər iki təhsil müəssisəsi arasında elm və təhsilə dair əməkdaşlıq müqaviləsi imzalanıb. Sənəddə elmi-tədqiqat işlərinin aparılması sahəsində birgə fəaliyyət, müvafiq təhsil müəssisələrinin əlaqələrinin genişləndirilməsi, müxtəlif birgə layihələrin, elmi, tədris və metodiki dərslər və nəşrlərin hazırlanması, eləcə də bir sıra digər məsələlər nəzərdə tutulub. Qeyd olunub ki, ATU və FHN Akademiyasının işbirliyi tibb təhsili sahəsində peşəkar kadrların yetişdirilməsi işinə də öz töhfəsini verəcək.

Görüşdən sonra ATU-nun nümayəndə heyəti FHN Akademiyasının maddi-texniki bazası, tədris şəraiti və Heydər Əliyev Mərkəzi ilə yaxından tanış olub. Görüşdə ATU-nun Tərbiyə işləri üzrə prorektoru, dosent Zülfüqar Musabəyov, Mətbuat xidmətinin rəhbəri Günel Aslanova, FHN Akademiyasının rəis müavini, polkovnik İlham Babaşov, Humanitar fənnlər kafedrasının müdiri, professor Fizuli İbrahimzadə və Ümumi şöbənin rəis müaini, baş leytenant İradə Kərimova iştirak ediblər.

# Baş stomatoloq peyvəndləmə ilə bağlı əhaliyə müraciət edib

## Tərkibini bilmədiyimiz dərmanları rahatca istifadə edir, vaksinlərə gəldikdə isə, şübhəyə düşürük...

**Hazırda COVID-19-a qarşı peyvəndlərlə bağlı cəmiyyətdə çoxlu müzakirələr gedir. Bəziləri vaksinin tərkibinin bəlli olmadığını əsas gətirərək peyvəndləmədən imtina edirlər.**

Maraqlıdır ki, insanlar çox vaxt tərkibi bəlli olmayan dərmanları asanlıqla istifadə etsələr də, nədənsə bu təhlükəli virusa gəldikdə, şübhəyə düşürlər. Bu haqda Azərbaycanın Baş stomatoloqu, ATU-nun ortopedik stomatologiya kafedrasının müdiri, professor Nazim Pənahov açıqlamasında bildirib.



N.Pənahov qeyd edir ki, hər kəs dəfələrlə stomatoloji müalicə üçün həkimlərə üz tutub: “Müraciət etdiyiniz klinikada ağız boşluğunda aparılan istənilən müdaxilə (məsələn, plomblama, dişin pulpasının çıxarılması, yaxud dişin özünün çəkilməsi, diş əti xəstəliklərinin müalicəsi, dental implantasiya, müxtəlif protezlərin hazırlanması və s.) zamanı həkim-stomatoloq əksər hallarda müxtəlif tərkibli medikamentoz vasitələri ya inyeksiya şəklində ağızda selikli qişanın altına, ya məhlul şəklində birbaşa dişin pulpası çıxarılan nahiyəyə, yaxud dişin plomblanması zamanı onun üzərinə, dental implantasiyada əng və çənə sümüyünə tətbiq edir. Təbii ki, bu medikamentoz preparatların kimyəvi tərkibi, hansı üsulla hazırlanması, niyə məhz müalicənin bu və ya digər mərhələsində istifadə olunması sizi heç maraqlandırmır. Bu preparatların sizin hazırki vəziyyətinizə təsiri və gələcək həyatınızda nə kimi iz qoya biləcəyi haqda heç düşünmürsünüz. Çünki gəldiyiniz klinikada çalışan həkimin tibbi savadına və peşəkarlığına inanaraq ona müraciət etmisiniz. Lakin bu qlobal bəladan qorunmağımız üçün dövlətin ayırdığı külli miqdarda vəsait hesabına, min bir əziyyətlə respublikamıza gətirilməsi təmin edilən bu vaksinə gəldikdə isə, çoxları özünü həkim, epidemioloq, əczaçı, mikrobioloq, yaxud kimyaçı kimi aparır. Əksəriyyət Google-dan əldə etdiyi məhdud və tibbi əsası olmayan məlumatlara əsaslanaraq, bir-birlərinə vaksin vurdurmamaq barədə ciddi tövsiyələr verir”.

Bu cür davranışı təzadlı sayan Baş stomatoloq xatırladır ki, əksər uşaqlara həyatının elə ilk günlərindən Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələrinə müvafiq surətdə, mövcud olan sxem və təqvim üzrə, COVID-19-dan dəfələrlə qorxulu olan infeksiyalardan qorunmaq üçün müəyyən ardıcıllıqla peyvəndlər vurulur: “Bunun bəhrəsini də biz həyatımız boyunca həmin xəstəliklərə yoluxmamaqla görürük. Yaxud peşəmizlə əlaqədar olan bəzi infeksiyalar, məsələn, B hepatitinə qarşı əhali arasında kütləvi surətdə peyvəndləmə aparılmasa da, əksər stomatoloqlar könüllü surətdə bu peyvəndi, belə deyək, öz vəsaiti hesabına vurdurur, sonra revaksinasiya olunurlar və artıq belə xəstələr ilə təmas zamanı özlərini və yaxın çevrəsini yoluxmaqdan sığortalayırlar.

Ancaq deməkolar ki, bu pandemiya başladığı gündən bəzi sosial şəbəkələrdə yayılan, yoxlanılmayan və elmi dəlillərə əsaslanmayan məlumatlara istinad edərək, bəzi həmvətənlərimiz yenə də cari vaksinasiyaya inamsızlıq göstərirlər”.

Həkim-stomatoloq indiki pandemiya dönəmində ətrafdakılardan utanıb-çəkinmədən yerə tüpürən vətəndaşlara da müraciət edib. Qeyd edib ki, koronavirus bəlasından qurtulmağın yeganə yolu vaksinasiya, tibbi maska, sosial məsafə və fərdi gigiyena qaydalarına ciddi riayət etməkdən keçir: “Təəssüf ki, bəzi vətəndaşlarımızda ətrafdakıların iyrənc hesab etdiyi, indiki zamanda isə həm də çox qorxulu olan bir pis adət də var. Bu da öskürən zaman ağız boşluğuna düşən bəlğəmi ətrafdakılardan utanıb-çəkinmədən birbaşa yol getdiyi zaman küçəyə tüpürməsidir. Tüpürcəyin tərkibindəki külli miqdarda patogen mikroorqanizmlərin və virusların bizim küləkli şəhərimizdə hava vasitəsilə, eləcə də həmin ərazidən keçən və ayağının altına diqqət yetirməyən uşaq, ya böyük insanların ayaqqabılarına bulaşaraq evlərə, iş yerlərinə gətirilməsi infeksiyanın yayılması üçün zəmin yaradır”.

Odur ki, professor Nazim Pənahov bir daha vətəndaşlara müraciət edərək, onları elementar gigiyenik qaydalara riayət etməyə və peyvəndləməyə ürəklə yanaşmağa çağırıb.

# ATUREK-8 konfransının qalibləri mükafatlandırılıb

## Bu dəfəki konfransa 120-dən çox elmi iş təqdim olunmuşdu

**Azərbaycan Tibb Universitetində Rezidentlərin VIII Elmi-Təcrübi Konfransının (ATUREK-8) qalibləri ilə görüş keçirilib. ATU-nun Rezidentura və magistratura şöbəsinin müdiri Nailə Sultanova konfransın nəticələrinə görə ilk 3 yeri tutan gənc mütəxəssisləri təbrik edib.**

Professor N.Sultanova Azərbaycanda yüksək ixtisaslı tibbi kadr hazırlığında rezidentura təhsilinin müstəsna əhəmiyyət daşıdığını qeyd edərək, ATU-da 2011-ci ildən bu təhsil pilləsinə start verildiyini xatırladıb. İndiyədək respublika üzrə 1500-ə yaxın rezidentin məzun olduğunu qeyd edən natiq, gənc həkimlərin hərtərəfli formalaşması üçün elmi praktik konfransların xüsusi əhəmiyyət kəsb etdiyini də vurğulayıb. Nailə Sultanova ATUREK-8-in qalibləri olan rezidentləri təbrik edərək onlara hər sınaqdan uğurla çıxmağı arzulayıb.

Sonra ATUREK-8 konfransının qaliblərinə diplom və pul mükafatları təqdim olunub. 1-ci yerə ATU-nun Tədris Terapevtik Klinikasının Şüa diaqnostika kafedrasının rezidenti Humay Rzayeva (“Postpartum ovarian vena trombozunun radioloji dəyərləndirilməsi” mövzusu), 2-ci yerə Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun I ümumi cərrahiyyə kafedrasının rezidenti Vəli Əliyev (“Süd vəzi əməliyyatlarında müxtəlif metodikaların müqayisəsi” mövzusu), 3-cü yerə isə ATU Stomatologiya Klinikasının Ortopedik stomatologiya kafedrasından Gülnur Rüstəmova (“Süd dişlərinin əhəmiyyəti” mövzusu) görə layiq görülüb.

Görüşdə ATU-nun Rezidentura və magistratura şöbəsinin müdir müavini Gülay Məmmədzadə də iştirak edib.



Qeyd edək ki, Rezidentlərin VIII Elmi-Təcrübi Konfransının məqsədi tibbin müxtəlif sahələrini əhatə edən müasir biliklərin paylaşılması və müzakirə edilməsindən ibarət olub. Ötən ilin sonunda keçirilən ATUREK-8 konfransına 120-dən çox elmi iş təqdim olunub.

**ATU-nun mətbuat xidməti**

# Azərbaycanda 18 yaşına çatmış vətəndaşların vaksinasiyası başlanıb




**Vaksinlər müxtəlif cür hazırlanır. Azərbaycanda koronavirusa qarşı ilk tətbiq olunan Çinin "Sinovac" şirkətinin vaksinidir. Bu, inaktivləşdirilmiş vaksindir. Artıq ölkəmizə "Vaxzevria" və "Sputnik V" vaksinləri də gətirilib və onların da tətbiqinə başlanılır. Ölkəmizdə tətbiq olunan bütün vaksinlər təhlükəsizdir və səmərəlidir.**

İndiyədək 600 min nəfərə yaxın vətəndaş ikinci dozanı qəbul edib. İki doza vurulanlar arasında yoluxma sayı çox aşağı səviyyədədir. Yoluxanlar isə xəstəliyi ağır formada keçirməkdən tam qorunurlar.

Bunu Nazirlər Kabineti yanında Operativ Qərargahın brifinqində səhiyyə nazirinin birinci müavini Teymur Musayev deyib.

"Bu məlumatlar mayın 10-dan etibarən Azərbaycanın bütün ərazisində 18 yaşına çatmış vətəndaşların vaksinasiya kampaniyasında iştirak etməsinə əsas verir. Bu, böyük bir imkandır və bu imkan peyvəndlərin kifayət qədər olmasına əsaslanır. Digər bir məsələ ondan ibarətdir ki, könüllük prinsipi qorunaraq və eyni zamanda, vətəndaşlıq məsuliyyəti hiss edərək dünyanın qabaqcıl ölkələrində olduğu kimi bu prosesə kütləvi surətdə qoşulmaqla qısa müddətdə normal həyata qayıtmaq imkanı var. Bu imkanı əldən verməmək olmaz və Səhiyyə Nazirliyinin rəsmisi kimi 18 yaşı tamam olan hər bir vətəndaşı həmin kampaniyaya qoşulmağa çağırıram. Nəinki öz sağlamlığı və həyatı, həm də doğmalarının, əzizlərinin həyatını düşünərək bu mühüm kampaniyaya qoşulmaqla ölkəmizin, cəmiyyətimizin normal həyata dönüşünü təmin etmək olar",- deyə T.Musayev bildirib.




# Humanitar aksiya çərçivəsində 17 nəfər ödənişsiz əməliyyat olunub

**ATU rəhbərliyinin təşəbbüsü ilə hər il ümummilli lider Heydər Əliyevin anadan olmasının ildönümü ərəfəsində aztəminatlı ailələrdən olan tələbələrin ödənişsiz göz əməliyyatları keçirilir.**

Universitetimizin rektoru Gəray Gəraybəyli və oftalmoloq həkim Qurban İsmayılovun təşəbbüsü ilə bu dəfə 17 nəfərin gözündə zəruri cərrahiyyə əməliyyatları aparılıb.

Tədris Cərrahiyyə Klinikasının Oftalmologiya şöbəsinin müdiri Q.İsmayılov qeyd edib ki, əməliyyat edilənlərdən 2-si rezident, qalanları tələbələrdir. Onların gözündə Excimer lazer əməliyyatı icra olunub.

Qeyd edək ki, universitetimizin tələbələri üçün mütəmadi olaraq belə humanitar aksiyalar təşkil olunur. Məqsəd aztəminatlı ailələrin övladlarını dəstəkləmək və cəmiyyətdə xeyriyyəçilik təşəbbüslərini təbliğ etməkdir.

# Buraxılış kursun semestr imtahanlarına hazırlıq vəziyyəti müzakirə olunub

**Mayın 4-də Əczaçılıq fakültəsinin Elmi Şurasının növbəti onlayn iclası keçirilib. Fakültə dekanı, dosent Kamandar Yaqubov Böyük Elmi Şuranın son iclasında müzakirə olunan məsələləri ətraflı şəkildə Şura üzvlərinin diqqətinə çatdırıb. Sonra gündəlikdəki məsələlər müzakirə edilib.**



Dekan K.Yaqubov buraxılış kursun semestr imtahanlarına hazırlığın vəziyyəti, 15 həftəlik imtahan vərəqlərinin düzgün doldurulması, semestr və DAK imtahanları üçün testlərin İM-ə verilməsi ilə bağlı toplantı iştirakçılarını məlumatlandırıb. O, məsələ ilə bağlı buraxılış kursunda tədris aparan kafedra müdirlərinin münasibətlərini bildirmələrini istəyib.

Toplantıda professorlardan M.Vəliyeva, T.Süleymanov, Q.İsgəndərov, M.Qəniyev, V.Əsmətova söz verilib. Onlar çıxışları zamanı fakültədə tədris prosesi və imtahana hazırlıq barədə fikirlərini bildiriblər. Sonra fakültənin I, II və III kurslarında aralıq qiymətləndirmənin yekunları müzakirə olunub. Tələbələri narahat edən məsələlər, sərbəst işlərin ETS-ə yerləşdirilməsi, yekun kollokviumun sorğusu üçün mayın 27-nə kimi vaxt olduğu diqqətə çatdırılıb.

Müxtəlif məsələlərin müzakirəsi çərçivəsində isə 2 əməkdaşın, Əczaçılığın texnologiyası və idarəçiliyi kafedrasının dissertantı S.Atakişizadənin dissertasiya işinin adı korreksiya edilib.

Adıçəkilən kafedranın doktorantı Telli Əlizadənin əczaçılıq üzrə fəlsəfə doktoru dərəcəsini alması üçün nəzərdə tutulan "Azərbaycanda dərman vasitələrinin təhlükəsizliyinin monitorinqi sisteminin vəziyyətinin öyrənilməsi və onun effektivliyinin optimallaşdırılması" mövzusunda dissertasiya işinin mövzusu, təqvim və iş planı təsdiq edilib, elmi rəhbər kimi dosent N.Naibov təyin olunub.

Sonda müsabiqə məsələlərinə baxılıb.

# Magistrantlarla onlayn görüş keçirilib



**Bu günlərdə Azərbaycan Tibb Universitetində "Əczaçılıq texnologiyası", "Əczaçılığın təşkili", "Əczaçılıq kimyası", "Ümumi və toksikoloji kimya", "Farmakoqnoziya" ixtisasları üzrə I kursda təhsil alan magistrantlarla Rezidentura və magistratura şöbəsinin müdir müavini Əfsanə Məmmədova onlayn toplantı keçirib.**

Kafedraların müəllimlərinin də iştirak etdiyi toplantıda Ə.Məmmədova magistrantların təhsili, tədrisdəki problemləri ilə maraqlanıb. Magistrantlar çıxışları zamanı bəzi fənlər üzrə material probleminin olduğunu qeyd edib, sərbəst iş və onların yerinə yetirilməsi ilə bağlı suallar veriblər. Cari semestr imtahanlarının hansı formatda keçəcəyi və qiymətləndirmənin necə aparılacağı ilə bağlı məsələlər də müzakirələr zamanı səsləndirilib. Magistrantları maraqlandıran suallara ətraflı cavablar verilib.

# Mayın 16-sı QİÇS Qurbanlarının Ümumdünya Xatirə Günüdür



**Hər il mayın üçüncü bazar günü dünyada QİÇS-dən vəfat edənlər xatırlanır.**

Bu, ictimaiyyətinin diqqətini QİÇS xəstələri və İİV infeksiyası daşıyıcılarının problemlərinə cəlb etmək, həmçinin dünyada bu problemin yayılmasının qarşısını almaq məqsədilə keçirilir. Bu gün HİV virusunun yayılmasına qarşı insanlara xəbərdarlıq etmək və onları bu təhlükədən uzaq olmağa çağırmaq məqsədilə mühazirələr oxunur, maarifləndirici, xatirə və xeyriyyə tədbirlərinin keçirilməsi təşkil edilir.

QİÇS Qurbanlarının Ümumdünya Xatirə Günü ilk dəfə 1983-cü ildə Amerikanın San-Fransisko şəhərində qeyd edilib. Bir neçə il sonra həmin xəstəliyə qarşı hərəkatın simvolu yaranıb. 1991-ci ildə rəssam Frenk Mur bu xəstəlik səbəbindən həyatdan gedənlərin xatirəsinə geyimə sancaqlanmış qırmızı lent, yaxud müxtəlif rəngli parçalardan yığılmış xüsusi nişan vurmağı təklif edib. Problemə biganə olmayanlar QİÇS Qurbanlarının Dünya Xatirə Günü hazırlanmış nişanları yaxalarına taxırlar.

Ümumdünya Səhiyyə Təşkilatının statistikasına görə, dünyada immun çatmazlığı virusuna yoluxanların sayı hər gün 14–15 min nəfər artır. İmmun çatmazlığı virusuna yoluxanların əksəriyyəti 30 yaşınadək olan gənclərdir. Son 25 il ərzində təxminən 25 milyon nəfər QİÇS xəstəliyindən vəfat edib.

QİÇS-lə xəstələnənlərin təxminən üçdə ikisi Afrikada yaşayır. Bəzi alimlərin fikrincə, "qara qitədə" hər üç nəfərdən biri immun çatmazlığı virusuna yoluxub. Hətta elə ölkələr var ki, əhalisinin 90 faizindən çoxu həmin virusun daşıyıcısıdır.

Həkimlərin qənaətinə əsasən, QİÇS ilk dəfə Afrikada meydana çıxıb. Onun yaşıl meymunlardan insana yoluxduğu güman edilir. QİÇS haqqında ilk məlumatlar ötən əsrin 80-ci illərində aşkara çıxmağa başlayıb və sonralar onu "XX əsrin vəbası" adlandırıblar.




## ATU-nun prorektoru beynəlxalq elmi konfransda çıxış edib

*Plenar iclaslarda fərqli mövzular üzrə mühazirələr dinlənilib*

ATU-nun elmi işlər üzrə prorektoru, dosent Rauf Bəylərov Özbəkistan Respublikası Səmərqənd Dövlət Tibb İnstitutunun təşkil etdiyi beynəlxalq elmi konfransın açılış mərasimində təbrik nitqi ilə çıxış edib. “İnnovativ texnologiyaların fundamental fənlərin və klinik təbabətin tibbi tədrisi prosesindəki rolu” mövzusuna həsr edilmiş tədbirdəki çıxışı zamanı prorektor R.Bəylərov ATU-da tədris prosesinin təşkili və elmi tədqiqatların aparılması, təhsildə innovasiya texnologiyalarının tətbiqi, qocaman universitetin Özbəkistan ali tibb tədrisi müəssisələri ilə sıx əməkdaşlığı haqqında iştirakçılara məlumat verib. Natiq konfrans iştirakçılarına ATU-nun rektoru, professor Gəray Gəraybəylinin təbrikini çatdıraraq konfransın işinə uğurlar arzulayıb.

Konfransda çıxış edən Səmərqənd Dövlət Tibb Universitetinin rektoru Jasur Rizayev yüksək texnologiyalar əsrində ali təhsil üçün yeni keyfiyyət göstəricilərindən danışıb. Konfransın bu sahədə bilikləri paylaşmaq, yeni ideyaları ərsəyə gətirmək məqsədi daşıdığını vurğulayıb.

Azərbaycan və Özbəkistanla yanaşı, Rusiya, Qazaxıstan və Tacikistandan da alimləri bir araya gətirən konfransda müxtəlif sahələr üzrə - anatomiya, histologiya, embriologiya, mikrobiologiya, virusologiya, immunologiyanın tədrisində innovasiya texnologiyalarının roluna dair müzakirələr aparılıb. Tədbirin seksiyalarında patoloji anatomiya və patoloji fiziologiyanın tədrisində, həmçinin kliniki təbabətdə innovasiya texnologiyalarının verə biləcəyi faydalardan danışılıb. Elmi yığıncağın plenar iclaslarında ATU əməkdaşlarının da fərqli mövzular üzrə mühazirələri dinlənilib, həmçinin master-klasslar təşkil olunub.

# Vaksinasiyanı genişləndirmək üçün təbliğata güc verməliyik

### “Yay fəslinin COVID-19-un yayılma dinamikasına təsiri” mövzusunda vebinar keçirilib



**Mayın 6-da Azərbaycan Tibb Universitetinin İctimai səhiyyə fakültəsinin tələbələri üçün “Yay fəslinin COVID-19-un yayılma dinamikasına təsiri” mövzusunda vebinar keçirilib. Vebinarı adıçəkilən fakültənin dekanı, professor Anar Ağayev açaraq bildirib ki, əsas məqsəd COVID-19 pandemiyasının qarşıdan gələn yay fəslində vüsət almaması üçün tələbələrlə ətraflı söhbət aparmaq, virusla mübarizə yolları barədə onları maarifləndirməkdən ibarətdir.**

Dekan ətraflı məlumat verməsi üçün sözü Ağciyər xəstəlikləri kafedrasının müdiri, dosent Rafiq Bayramova verib. R.Bayramov dünyanı ağuşuna alan pandemiyanın hələ də davam etdiyini yada salıb: “Tənəffüs infeksiyaları, o cümlədən COVID-19 infeksiyası ilin bütün fəsillərində aktualdır. İstər isti, istərsə də soyuq aylarda tənəffüs infeksiyalarına yoluxmağın özünəməxsus tərəfləri, xüsusiyyətləri mövcuddur. Əsasən soyuq aylarda tənəffüs infeksiyalarına yoluxanların çox olduğu deyilsə də, bəzən isti aylarda da kütləvi yoluxmalara rast gəlinir. COVİD-19 infeksiyasına yoluxanların 90 faizi xəstəliyi simptomsuz və yüngül keçirdiyindən, onlarda yoluxma elə də hiss olunmur və nəticədə ətraf üçün təhlükə mənbəyinə çevrilirlər. Həmin şəxslər özlərində hər hansı klinik əlaməti hiss etmir və ya xəstə olduqlarını bilmir, ailə daxilində və ya digər yerlərdə qoruyucu vasitədən istifadə etmirlər. Bu səbəbdən də təmasda olduqları şəxsləri yoluxdururlar”.



Virusa yoluxmamaq üçün əhalinin kütləvi şəkildə vaksinasiya olunmasının vacibliyinə toxunan R.Bayramov yeganə çıxış yolunun peyvəndlənməkdən keçdiyini bildirib. O, cəmiyyətdə birmənalı qarşılanmayan peyvəndlər barədə də arqumentlərini səsləndirib: “Doğrudur, koronavirusun müalicəsi üçün konkret dərman yoxdur. Yalnız ehtimallara əsaslanaraq xəstələrə dərmanlar tətbiq olunur. Ona görə də ən əlverişli mübarizə yolu vaksinasiya olunmaqdır. Başqa çıxış yolumuz yoxdur. Düzdür, vaksinasiya olunanlar arasında istər dünyada, istərsə də ölkəmizdə təkrar yoluxanlara rast gəlinir. Onlar ambulator və ya stasionar şəraitdə müalicə alırlar. Aralarında dünyasını dəyişənlər də var. Amma bu göstərici az faiz təşkil edir. Avropada bu, 0.2 faizdir. Onu da qeyd edim ki, hər iki dozanı almış və ikinci dozanın üstündən bir ay keçmiş şəxslər peyvənd olunmuş hesab edilir. Yalnız bundan sonra həmin şəxslərdə postvaksinal immunitetin olduğu barədə fikir söyləmək olar”.

Əhali arasında bu istiqamətdə təbliğatın aparılmasının vacibliyinə toxunan məruzəçi, bu məsələdə tələbələrin rolunun danılmaz olduğunu vurğulayıb. Onları təbliğat məsələsində fəal olmağa çağırıb.

Sonra Yoluxucu xəstəliklər kafedrasının müdiri, dosent Cəlal İsayev çıxış edib. O, virusa yoluxma və koronavirusdan qorunmanın yolları barədə tələbələrə ətraflı məlumat verib: “Bu gün respublikamızda aşkar olunan koronoviruslu xəstələrin sayı 300 mini keçib. Onların sağalma faizi 92.3, ölüm faktı isə 1.4 faiz təşkil edir. Dünya miqyasında götürəndə, ölüm göstəricisi bizdə azdır. Amma buna arxayın olmamalı, qabaqlayıcı tədbirlətrimizi davam etməliyik”.

C.İsayev koronavirusa qarşı mübarizədə hər kəsi diqqətli olmağa çağırıb. Bildirib ki, kimsə özündə virusun cüzi əlamətini hiss edərsə, mütləq müayinə olunmalı, xəstəlik aşkar edildikdə isə, cəmiyyətdən təcrid olunmalıdır: “Ölkəmizdə 3 aydır vaksinasiyaya başlamışıq, amma hələ əhalinin 3.78 faizi vaksinasiya olunub, yəni hər iki vaksin kursunu keçib. Doğrudur, dünya masştabında bu, az rəqəm deyil. Amma bizi qane etmir. Çıxış yolumuz əhalinin böyük hissəsinin vaksinasiya olunmasıdır. Bu istiqamətdə tələbələr də yaxın çevrələrində təbliğatı genişləndirməlidirlər”.

Sonda məruzəçilər tələbələri maraqlandıran sualları ətraflı şəkildə cavablandırıb, onlara təbliğat aparmaqla bağlı lazımi tövsiyələrini veriblər.

# "Bizə kəmiyyət yox, keyfiyyət lazımdır"

### “Təbib” idman klubunda geniş toplantı keçirilib

**Azərbaycan Tibb Universitetinin “Təbib” idman klubunun ümumi toplantısı keçirilib. Vəzifəyə təyin olunandan sonra kollektivlə ilk rəsmi iclas keçirdiyini söyləyən idman klubunun sədri, respublikanın əməkdar məşqçisi, beynəlxalq dərəcəli hakim Qələndər Aslanov gündəlikdə duran məsələləri diqqətə çatdırıb.**

Əvvəlcə klubda işə davamiyyət, nizam-intizam məsələləri müzakirə olunub. Klubda iş fəaliyyətinin pandemiya dövrünün şərtləri daxilində tənzimləndiyini deyən Q.Aslanov, buna baxmayaraq, bəzi əməkdaşların öz işinə yenə də məsuliyyətsiz yanaşdığını söyləyib. Qeyd edib ki, yaxında yaşayanların, imkanı olanların həftədə 3 dəfə, yaşlı əməkdaşların isə həftədə 2 dəfə işə gəlmələri barədə razılıq əldə olunsa da, təəssüf ki, bəziləri nəinki həftədə iki dəfə, hətta iki həftədə bir dəfə də işə gəlməyiblər: "Ona görə də heç bir yaş məhdudiyyəti qoymadan beş günlük iş qrafikinə keçməyə məcburuq. Digər tərəfdən, təhsil işçiləri peyvənd olunub və yaşı 65-dən yuxarı olanların da işə gəlibgetməsinə icazə verilib. Hər bir əməkdaşın özü, idman növü və fəaliyyəti haqqında məlumatları yazaraq fotoşəkillə bərabər bizə təqdim etmələrini istəmişdik ki, saytımızda yerləşdirək. Bir neçə müəllimimiz istisna olmaqla, bu məsələyə də laqeyd yanaşıldı". İşə davamiyyətlə bağlı digər çatışmazlıqlara da toxunan klub rəhbəri, nizam-intizamın möhkəmləndirilməsi istiqamətində ciddi tədbirlərin görüləcəyini vurğulayıb.





“Təbib” idman klubunda universitetin maliyyə imkanlarına uyğun təmir işlərinin görüləcəyini də bildirən Q.Aslanov məşqçi-müəllimlərin öz ixtisasları üzrə məşqlər aparması məsələsi üzərində xüsusi dayanıb: “Bildiyiniz kimi, əvvəllər burada müxtəlif idman bölmələri ilə yanaşı, yataqxana tələbələri ilə idman bölməsi də vardı. Artıq bu bölmə olmayacaq. Tələbə istər yataqxanadan, istərsə də evdən gəlsin, fərqi yoxdur. İdman bölməsinin konkret adı var. Tələbə hansı idmanla məşğul olursa, biz xüsusi seçimlə onları cəlb edəcəyik. Hər məşqçi-müəllim öz ixtisası üzrə məşqlər aparacaq. Təkmübarizlik idman növlərində 8-12 nəfər, komandalı idman növlərində isə 10-14 nəfərdən çox olmamaq şərtilə iki qrup məcburidir. Bizə kəmiyyət yox, keyfiyyət lazımdır. Bundan əlavə, məşqçi-müəllimlərimiz apardıqları idman bölməsindən başqa, digər dərslərə köməkçi müəllim kimi də çıxacaqlar”.

Bu məsələ ətrafında müzakirələr aparılıb və əməkdaşlar tərəfindən bir çox təkliflər irəli sürülüb. Eyni zamanda, pullu xidmət və digər məsələlərlə bağlı suallara da aydınlıq gətirilib.

İclasın sonunda idman klubunun əməkdaşı Nataliya Kərimova uzun illər uğurlu fəaliyyətinə görə və yubiley yaşı münasibətilə xüsusi təşəkkürnamə ilə mükafatlandırılıb.

# Rezident-həkimlərin nəzəri biliklərini artırmaq məqsədi ilə seminar keçirilib



**May ayının 7-də Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasında gənc revmatoloqların toplantısı keçirilib.**

Toplantıda gənc rezidentlər və revmatoloqlar, ATU-nun Daxili xəstəliklər kafedrasının professoru, tibb elmləri doktoru, ATU Tədris Terapevtik Klinikasının Revmatologiya və qastroenterologiya şöbəsinin müdiri, professor Sahib Musayev, klinikanın müalicə işləri üzrə direktor müavini Fəridə Hacıyeva da iştirak ediblər.

Dr. Günel Əsgərova çıxış edərək, günlük praktikada istifadə olunan müasir fiziki müayinə üsullarını rezidentlərə çatdırıb: "Revmatoloji xəstəliklərin diaqnostikasında xəstədən toplanmış ətraflı anamnez və aparılan hərtərfli fiziki müayinə vacib rol oynayır. Müayinə zamanı oynaq və sümüklərdən başqa, daxili orqanlarda, dəri, saç, selikli qişalarda olan dəyişikliklər də bizim üçün önəmlidir. Diaqnozun düzgün qoyulması üçün toplanmış dolğun anamnez və hərtərəfli fiziki müayinə şərtdir".

Daha sonra professor Sahib Musayev mövzu il əlaqədar öz əlavələrini diqqətə çatdırıb.

# İlk azərbaycanlı şəfqət bacısı general Əliağa Şıxlinskinin həyat yoldaşı olub

**Hər il mayın 12-si Beynəlxalq Tibb Bacısı Günü kimi qeyd olunur.**

1974-cü ilin yanvarında rəsmi olaraq mayın 12-nin Beynəlxalq Tibb Bacısı Günü kimi qeyd olunması barədə qərar verilib. Dünyanın 141 ölkəsinin mərhəmətli peşə sahiblərini birləşdirən Tibb Bacılarının Beynəlxalq Məsləhət Şurası həmin günü Krım müharibəsi zamanı (1853-1856) ilk dəfə şəfqət bacısı xidməti təşkil edən məşhur ingilis Florens Haytingelin ad günü şərəfinə təşkil edib.

İlkin tibbi təhsil almış şəfqət bacıları müalicə müddətində xəstələrlə ən çox ünsiyyətdə olan, həkim və ya feldşerin göstərişlərini yerinə yetirən peşə sahibləridir. Hazırda tibb bacıları səhiyyə işçiləri arasında sayca çoxluq təşkil edirlər. Xəstələrin sağalıb şəfa tapması və normal həyata qayıtmağında həkim göstərişlərini yerinə yetirən xidmət işçisi kimi onun üzərinə böyük vəzifə düşür.



İlk azərbaycanlı şəfqət bacısı general Əliağa Şıxlinskinin həyat yoldaşı Nigar Hüseyn Əfəndi qızı Şıxlinskaya olub. O, Birinci Dünya müharibəsi başlayanda yaralı əsgərlərə tibbi yardım üçün yaradılan Qırmızı Xaç Cəmiyyətinin sədri seçilib. Nigar xanımın başçılıq etdiyi xəstəxana məşhurlaşaraq “Şıxlinski xəstəxanası” kimi tanınıb. O, həmçinin 1914-cü ildə yaradılan Qadın Xeyriyyə Cəmiyyətinə də rəhbərlik edib. 1920-ci il martın 10-da Əliağa Şıxlinskinin və Fətəli Xan Xoyskinin təşəbbüsü ilə Azərbaycan Qızıl Aypara Cəmiyyəti təsis edilir. Nigar Şıxlinskaya Azərbaycan Qızıl Aypara Cəmiyyətinin “Şəfqət xidməti”nin təşkilatçısı olub.

Onu da xatırlatmağa dəyər ki, hazırda yeni növ koronavirus (COVID-19) infeksiyasına qarşı aparılan mübarizədə tibbi bacıların təcrübə və peşəkarlıqları, özlərinin ən üstün şəxsi keyfiyyətləri və qətiyyətləri ilə yaxından iştirak edirlər.

*Yubiley*

# Təcrübəli pedaqoq, yüksək ixtisaslı mütəxəssis



Universitetimizin Məhkəmə təbabəti kafedrasının dosenti, tibb üzrə fəlsəfə doktoru Eldar İsgəndər oğlu Ələkbərovun 70 yaşı tamam olub.

Eldar müəllim 13 may 1951-ci ildə Zəngilan rayonunun Mincivan qəsəbəsində anadan olub. Orta məktəbi bitirdikdən sonra 1968-ci ildə N.Nərimanov adına ATİ-nin Pediatriya fakültəsinə daxil olub. Tələbəlik dövründən Təcili Tibbi Yardım Stansiyasında əmək fəaliyyətinə başlayan Eldar Ələkbərov 1974-cü ildə ali təhsilini başa vuraraq, uşaq cərrahı kimi Sumqayıt şəhər Təcili Tibbi Yardım Xəstəxanasına göndərilib. 1975-ci ildə Sumqayıt şəhərində internatura keçib və həmin xəstəxanada əvvəl uşaq cərrahı, sonra isə uşaq travmatoloqu kimi fəaliyyət göstərib. 1978-ci ildə Ukrayna Həkimləri Təkmilləşdirmə İnstitutunda uşaq yaşlarının travmatologiya və ortopediyası üzrə ordinator vəzifəsində 3 aylıq kurs keçib.

Həkim kimi fəaliyyət göstərməklə yanaşı, həm də pedaqoji sahədə çalışıb, Sumqayıt şəhər Tibb Texnikumunda ümumi cərrahlıq fənnini tədris edib. Tələbələrin xəstəxanada aparılan əməliyyatlarda yaxından iştirak etməsinə şərait yaradıb, onların dərin hörmət və rəğbətini qazanıb. O, Bakıda keçirilmiş Respublika üzrə Gənc Cərrahlar müsabiqəsində IV yerə layiq görülüb. 1980-ci ildə isə müsabiqə yolu ilə Məhkəmə təbabəti kafedrasına assistent vəzifəsinə qəbul edilib.

E.Ələkbərov 2006-cı ildə dissertasiya müdafiə edərək tibb elmləri namizədi alimlik dərəcəsi alıb. 2014-cü ildə isə dosent vəzifəsinə seçilib. O, 22 elmi məqalənin, 12 tezisin, 2 səmərələşdirici təklifin və “Məhkəmə-tibbi terminlərinin tədris-məlumat lüğəti” dərs vəsaitinin müəllifidir. 1995-ci ildən Yeni Azərbaycan Partiyasının üzvüdür. Eldar Ələkbərov özünü işgüzar, dərin bilikli bir müəllim kimi göstərib, Azərbaycan bölməsinin bütün fakültələrində yüksək səviyyədə mühazirə və praktiki məşğələ dərsləri aparıb. O, I Müalicə-profilaktika fakültəsində Problem Komissiyasının üzvüdür, kafedrada test bankının tərtibində fəal iştirak edir və həmin məsələ üzrə kafedranın eksperti kimi Azərbaycan bölməsi üzrə bütün imtahanlarda kafedranı təmsil edir. Eləcə də tələbələr üçün sərbəst mövzuların və təcrübi bacarıqların tərtibində, mühazirə mətnlərinin hazırlanmasında yaxından iştirak edir. Universitetdə keçirilən simpozium və konfranslarda fəallığı ilə seçilir. Məhkəmə təbabəti kafedrasında Tələbə Elmi Cəmiyyətinin rəhbəridir.

O, kafedranın əməkdaşları, universitetimizin işçiləri və tələbələr arasında böyük hörmət qazanıb. Məhkəmə təbabətini fənn kimi tədris etməklə bərabər, 40 ilə yaxın müddətdə məhkəmə-tibb eksperti kimi fəaliyyət göstərib və bir çox cinayətlərin açılmasında mühüm rol oynayıb.

Eldar müəllimi 70 illik yubileyi münasibətilə ürəkdən təbrik edir, ona sağlıqlı uzun ömür, elmi-pedaqoji fəaliyyətində uğurlar arzulayırıq.

**Məhkəmə təbabəti kafedrasının əməkdaşları**

# C vitamini metabolik sindromun qarşısını almağa kömək edir

**Metabolik sindrom ürək xəstəlikləri və diabet kimi həyat üçün təhlükəli xəstəliklərin yaranma riskini artırır. Araşdırmalara görə, C vitamininin çatışmazlığı metabolik sindromla bağlıdır.**

Bu yaxınlarda aparılan tədqiqat nəticəsində metabolik sindromla C vitamininin çatışmazlığı arasında əlaqənin olduğu aydınlaşıb. Metabolik sindromu olan insanlar üçün təkcə C vitamini kifayət deyil. Tərkibi emal edilmiş yüksək şəkər və yağla zəngin olan pəhriz xroniki iltihaba və metabolik sindroma gətirib çıxarır.

“Redox Biology”də nəşr olunan araşdırmaya görə, eyni yemək vərdişi də bağırsaq mikrobiotasının tərkibində disbalansa səbəb ola bilər ki, bu da bağırsağın funksiyasını pisləşdirir. Nəticədə sözügedən proses toksinlərin qan dövranına daxil olmasına səbəb olur. Endotoksemiya adlanan bu vəziyyət C vitamininin çatışmaması ilə daha da kəskinləşir.

C vitamini antioksidant kimi fəaliyyət göstərən qidalandırıcı maddəni, E vitaminini qoruyur. Birinci çatışmazlıq ikinciləri itirməyə səbəb olur ki, bu da orqanizmdə antioksidləşdiricilərin və azad radikalların səviyyələri arasında disbalansa gətirib çıxarır. Oksidləşdirici stress kimi tanınan bu fenomen xroniki iltihabla nəticələnə bilər.

“Əgər pəhrizdə çox yağ varsa, bu, bağırsaq zədələnməsinə gətirib çıxarır. Sonra bakterial hüceyrələrin divarları bağırsaqlardan sızıb orqanizmin qan dövranına daxil ola bilir. Neytrofillər isə onları təqib edir”, - deyə Oreqon Ştatındakı Universitetin professoru və tədqiqatın aparıcı müəllifi Maret Traber bildirib.



Neytrofillər orqanizmdə ən çox yayılmış ağ qan hüceyrələrinin bir növüdür. Onlar bakteriyaları öldürərək məişətdə də dezinfeksiyaedici və ağardıcı kimi istifadə olunan zəif xlor turşusunu istehsal edirlər. Lakin bu mexanizm mikrob təhlükələrini aradan qaldırmağa kömək etsə də, C vitamininin məhvinə səbəb olur. Müvafiq müdaxilə olmadan bu proses təkrarlanır. Bu səbəbdən, C vitamini ilə zəngin məhsulların çox istifadə olunması metabolik sindromla mübarizə üçün xüsusilə vacibdir.

“Hesab edirik ki, bakterial hüceyrələrin divarlarının yerdəyişməsi bütün orqanizmin iltihab əleyhinə reaksiyası ilə bağlıdır”, - Traber söyləyib.

AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ
AZƏRBAYCAN TİBB UNİVERSİTETİ

**KAFEDRALAR ÜZRƏ AŞAĞIDAKI YERLƏRİ TUTMAQ ÜÇÜN MÜSABİQƏ ELAN EDİR:**

**Kafedranın professoru:**

- Ümumi cərrahlıq kafedrası - 1 yer

**Kafedraların dosentləri:**

- Ağız və üz-çənə cərrahiyyəsi kafedrası - 1 yer
- III Cərrahi xəstəliklər kafedrası - 1 yer
- I Mamalıq və ginekologiya kafedrası - 1 yer (0,5 vahid)
- Oftalmologiya kafedrası - 1 yer (0,5 vahid)
- Farmakoqnoziya kafedrası - 1 yer
- Əczaçılıq kimyası kafedrası - 1 yer
- III Daxili xəstəliklər kafedrası - 1 yer (0,5 vahid)
- Terapevtik və pediatrik propedevtika kafedrası - 1 yer (0,5 vahid)

**Kafedraların assistentləri:**

- Tibbi və bioloji fizika kafedrası - 1 yer (0,5 vahid)
- Ağız və üz-çənə cərrahiyyəsi kafedrası - 1 yer
- Oftalmologiya kafedrası - 1 yer (0,5 vahid)
- Psixiatriya kafedrası - 1 yer
- Terapevtik stomatologiya kafedrası - 1 yer (0,5 vahid)
- II Uşaq xəstəlikləri kafedrası - 1 yer (0,5 vahid)
- II Uşaq xəstəlikləri kafedrası - 1 yer (0,25 vahid)
- İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrası - 1 yer (0,5 vahid)
- İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrası - 1 yer
- Sitologiya, embriologiya və histologiya kafedrası - 1 yer
- II Mamalıq və ginekologiya kafedrası - 1 yer (0,5 vahid)
- Terapevtik stomatologiya kafedrası - 1 yer (0,5 vahid)
- I Cərrahi xəstəliklər kafedrası - 2 yer (0,5 vahid)

**Kafedraların baş müəllimləri:**

- Hərbi terapiya kafedrası - 1 yer
- Xarici dillər kafedrası - 1 yer (0,75 vahid)

**Kafedranın müəllimi:**

- Xarici dillər kafedrası - 1 yer (0,75 vahid)

**Müsabiqədə iştirak etmək üçün sənədlərin təqdim olunma müddəti elan qəzetdə dərc olunduğu gündən 30 gün keçənədəkdir. Sənədlər rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir:**

**AZ 1007, Bakı şəhəri, Ənvər Qasımzadə küçəsi,14**
**Telefon: 597-10-08**

## Müsabiqədə iştirak etmək istəyənlərin nəzərinə

**Kafedralar üzrə vakant yerləri tutmaq üçün müsabiqədə iştirak edənlər Elmi katibliyə aşağıdakı sənədləri təqdim etməlidirlər:**

1. Rektorun adına ərizə.
2. Kadrlar uçotunun şəxsi vərəqəsi (yeni formatda).
3. Kafedradan verilmiş xasiyyətnamə. Xasiyyətnaməni kafedranın müdiri və həmkarlar təşkilatının sədri imzalamalıdır. Xasiyyətnamənin müsbət və ya mənfi olması, o cümlədən bu şəxsin yeni müddətə kafedrada çalışıb və ya çalışmaması əsaslandırılmalıdır. Kafedra müdiri vəzifəsinə iddiaçılara xasiyyətnaməni fakültənin dekanı və həmkarlar təşkilatının sədri imzalamalıdır.
4. Tərcümeyi-hal. Burada şəkil, ad, soyad, bitirdiyi məktəblər, elmi ad və dərəcələr, bildiyi dillər, bildiyi kompüter proqramları, çap olunmuş işlərin sayı, işlədiyi yerlər, hazırkı vəzifədə neçə il çalışması, niyə bu vəzifədə yenidən seçilmək istəməsi, olduğu ixtisasartırma kursları, ailə vəziyyəti barədə ətraflı məlumat, yaşadığı ünvan, elektron poçt ünvanı və telefonu göstərilməlidir.
5. ATU-nun klinikalarında çalışanlar üçün son beş ilin həkimlik fəaliyyəti barədə klinikadan verilmiş arayış. Arayışı klinikanın direktoru və həmkarlar təşkilatının sədri tərəfindən imzalanmalıdır.
6. Son beş il ərzində çap olunan elmi işlərin siyahısı. Siyahı müəllif və kafedra müdiri tərəfindən imzalanmalıdır.
7. Açıq mühazirənin və ya açıq təcrübi dərsin videoçəkilişinin diski.
8. Şəxsiyyət vəsiqəsinin surəti.
9. Müvafiq elmi dərəcə diplomu və elmi ad attestatının surəti.

**Qeyd: ATU-nun əməkdaşı olmayan mütəxəssislər siyahıda-kı 3-cü, 5-ci və 7-ci bənddəki sənədlərin əvəzinə, sonuncu iş yerindən verilən xasiyyətnamə, işlədiyi klinikadan həkimlik fəaliyyəti barədə arayış və əmək kitabçasından çıxarışı təqdim etməlidir.**

# “Təbib” qəzetinə yeni redaktor təyin olunub

**Azərbaycan Tibb Universitetinin “Təbib” qəzetinin redaktoru vəzifəsinə təyinat olub. Universitetin rektoru, professor Gəray Gəraybəylinin 06 may tarixli əmrinə əsasən, bu vəzifəyə Məğrur Əliyev təyin edilib.**



ATU-nun Tərbiyə işləri üzrə prorektoru, dosent Zülfüqar Musabəyov yeni redaktoru qəzetin kollektivinə təqdim edib.

Z.Musabəyov əvvəlcə qəzetin mərhum redaktoru, şair, publisist, yazıçı Eldar İsmayılın xatirəsini yad edərək, onun 1997-ci ilin əvvəllərindən ömrünün sonunadək «Təbib» qəzetinə rəhbərlik etdiyini bildirib. O, ATU rəhbərliyinin yeni təyinatdan sonra qəzetdə bir sıra yeniliklər, dəyişikliklər gözlədiyini qeyd edib: “Çalışmaq lazımdır ki, qəzetdəki materiallar həm tələbələrin, həm də universitet əməkdaşlarının marağına səbəb olsun, yeni ideyalar həyata keçirilsin. İnanıram ki, tezliklə bu dəyişiklikləri görə biləcəyik. Uğurlar arzulayıram”.

Qeyd edək ki, M.Əliyev Prezident yanında Dövlət İdarəçilik Akademiyasını bitirib. Sonradan Dövlət İqtisad Universitetində ikinci ali təhsil alıb. 25 ildən artıqdır ki, mətbuat sahəsində fəaliyyət göstərir. İndiyədək bir sıra tanınmış qəzet və saytlarda rəhbər vəzifələrdə çalışıb, peşəkar fəaliyyətinə görə bir çox mükafatlara layiq görülüb.

O, 44 günlük Vətən müharibəsində zabit kimi iştirak edib. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin müvafiq sərəncamları ilə Füzuli və Qubadlının işğaldan azad olunmasına görə medalları ilə təltif edilib. Döyüş yolu haqqında bir sıra mətbuat orqanları və televiziya kanallarında materiallar hazırlanıb, Vətən müharibəsindən bəhs edən filmə çəkilib.

# Beyni əqli zəiflikdən qoruyan qidalar

Yeni tədqiqata görə, balıq, tərəvəz və zeytun yağı ilə zəngin olan Aralıq dənizi pəhrizi insan beynini Alzheimer xəstəliyinə səbəb ola biləcək zülalın yığılmasından və sıxılmasından qoruya bilir. Tədqiqatın nəticələri Amerika Nevrologiya Akademiyasının “Neurology” Tibbi jurnalının onlayn-buraxılışında dərc edilib.

Tədqiqat zamanı amiloid və tau adlanan anormal zülallar öyrənilib. Amiloid sızanaq, tau isə yumaqcıq yaradan zülallardır. Onların hər ikisi Alzheimer xəstəliyi olan insanlarda aşkarlansa da, normal idraklı yaşlı insanların beynində də tapıla bilər.

Aralıq dənizi pəhrizinə yüksək miqdarda tərəvəz, paxla, meyvələr, dənli bitkilər, balıq və zeytun yağı, yağ turşuları, süd məhsulları və ət də daxildir.

“Bizim tədqiqatımız göstərir ki, tərkibi dolğunlaşmamış yağlardan, balıqlardan, meyvə və tərəvəzlərdən, aşağı tərkibli süd və ət məhsullarından ibarət olan pəhriz həqiqətən beyninizi yaddaş itkisindən və əqli zəiflikdən qoruya bilər”, - deyə Bonndakı alman neyrodegenerativ xəstəliklər mərkəzinin professoru, müəllif Tomazzo Ballarini söyləyib.



Əgər insanların onurğa beyninin amiloid və tau zülalına nəzər yetirsək, pəhrizə riayət etməyənlərdə riayət edənlərlə müqayisədə amiloid və tau biomarkerinin səviyyəsi daha yüksək olacaq. Yaddaş testlərinə gəldikdə, pəhrizə riayət edənlər, riayət etməyənlərdən pis nəticələr əldə ediblər.

## Etibarsız sayılır

II müalicə-profilaktika fakültəsinin III kurs, 218A4a qrup tələbəsi Ziyadova Türkan Sübhan qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin IV kurs, 117A7 qrup tələbəsi Abbasova Finarə Samir qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin IV kurs, 117A5 qrup tələbəsi Carçıyeva Lalə Etibar qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin V kurs, 170A qrup tələbəsi Quliyeva Asiman Haxverdi qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Stomatologiya fakültəsinin akademik borcu qalan məzunu (753B qrup tələbəsi) İsmayılov Elmir Şahin oğlunun adına verilmiş müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

Stomatologiya fakültəsinin V kurs, 790-cı qrup tələbəsi Baxşəliyeva Pakizə Xalid qızının adına verilmiş müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

## Allah rəhmət eləsin!

Epidemiologiya, Uşaq-yeniyetmələrin sağlamlığı və əmək sağlamlığı, Qidalanma və kommunal gigiyena kafedralarının əməkdaşları və “Təbib” qəzetinin kollektivi Epidemiologiya kafedrasının müdiri, professor İbadulla Ağayeva anası

**Tehran xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor
MƏĞRUR ƏLİYEV

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet “Təbib” qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, “Bəxtiyar-4” İKF-də çap olunur və universitet daxilində yayılır.

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sayı 2250